*Özbəkistanın milli bayramı*

# Azərbaycan-Özbəkistan münasibətlərində yeni mərhələ

**Sovetlər birliyinin çöküşündən sonra dünyanın siyasi xəritəsində zəngin tarixə və böyük mədəni irsə, nəhəng istehsal və intellektual potensiala, sülhsevər və zəhmətkeş xalqa malik suveren bir dövlət meydana çıxdı. Bu, Azərbaycana dost və qardaş Özbəkistan Respublikası idi. Bu gün möhkəm əminliklə söyləmək olar ki, türk dünyasının mühüm tərkib hissələrindən biri olan çağdaş Özbəkistan dünya mədəniyyəti xəzinəsinə mühüm töhfələr vermişdir.**

Nəhayət, 1991-ci il sentyabrın 1-də özünün əzəli arzusuna, yeni dövlət müstəqilliyinə qovuşan özbək xalqı qarşısında yeni inkişaf perspektivləri açılmışdı. Bu dövrdən başlayaraq Özbəkistanın sabiq Prezidenti İslam Kərimovun sosialyönümlü bazar iqtisadiyyatına keçidin beş prinsipinə əsaslanan praqmatik siyasəti uğurla həyata keçirilir.

Sevindirici haldır ki, müstəqillik illərində həyata keçirilən irimiqyaslı islahatlar milli dövlətçiliyin və suverenliyin möhkəm təməlini qoydu, təhlükəsizliyi və qayda-qanunu, dövlət sərhədlərinin toxunulmazlığını, insan hüquq və azadlıqlarını, cəmiyyətdə millətlərarası barışığı, dini tolerantlığı təmin etdi, əhali və vətəndaşların yaradıcı potensialının həyata keçirilməsi üçün ləyaqətli həyat şəraiti yaratdı. Ötən illər ərzində Özbəkistan hökuməti ölkənin modernizasiyası və həyatın bütün sahələrində liberallaşma üzrə üstün istiqamətləri müəyyənləşdirdi. Dövlət və cəmiyyətin hərtərəfli və sürətli inkişafını təmin etmək üçün əlverişli şərait yaratdı.

Ölkənin modernləşdirilməsi yolunda Özbəkistanın qazandığı uğurlar artıq bir gerçəkliyə çevrilmişdir. Ölkədə siyasi sabitlik və islahatların ardıcıl həyata keçirilməsi iqtisadi sahədə əldə olunmuş uğurları təmin edir. Təsadüfi deyil ki, Özbəkistan son zamanlar sahibkarlıq fəaliyyəti üçün işgüzar mühitin yaxşılaşdırılması sahəsində uğurlu nəticələr əldə edən ilk 10 ölkə sırasına daxil olmuşdur.

Son illər ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində BMT-nin müvafiq mükafatlarına layiq görülən Özbəkistan bu yönümdə fəaliyyətini daha da genişləndirmişdir. Yanacaq-enerji və taxıl bitkiləri sahəsində heç bir ölkədən asılı olmayan Özbəkistan ət, süd və s. istehlak malları ilə də özünü tam təmin edir.

Qeyd etmək lazımdır ki, 2010-cu ilin noyabr ayında Prezident İslam Kərimov tərəfindən irəli sürülən demokratik islahatlar proqramı Özbəkistanın müstəqil inkişaf yolunda yeni mərhələ açmışdır. Bu tarixi sənəd müstəqillik illərində aparılmış genişmiqyaslı islahatların qanunauyğun məntiqi davamı idi. Burada dövlətin və cəmiyyətin modernləşdirilməsi üzrə uzunmüddətli strateji proqram öz əksini tapmışdır. Dünya praktikasında bənzəri olmayan kadrların hazırlanması üzrə milli proqramın həyata keçirilməsinə də son illər mühüm əhəmiyyət verilir.

Özbəkistanda aparılan islahatlar belə bir qənaətə gəlməyə imkan verir ki, iqtisadiyyatın "Özbək modeli" üzrə inkişaf yolunun seçilməsi ilə birgə demokratik bazar islahatlarının daha da gücləndirilməsi tədbirləri və iqtisadiyyatın liberallaşdırılması, dərindən düşünülmüş və ardıcıl həyata keçirilən siyasi, iqtisadi və sosial islahatların prioritetləri iqtisadiyyatın perspektiv inkişafı üçün etibarlı, möhkəm bünövrə yaratmışdır. Bu bünövrə əsasında isə milli iqtisadiyyatın davamlı və dinamik inkişafı vüsət almışdır, əhalinin həyat səviyyəsi davamlı olaraq yüksəlməyə başlamışdır.

Ölkədə həyata keçirilən islahatların səmərəsini yüksəltmək məqsədilə, xalqın böyük dəstək və etimadını qazanmış Özbəkistan Prezidenti Şövkət Mirziyoyevin təşəbbüsü ilə 2017-2021-ci illərdə Özbəkistan Respublikasının inkişafının beş üstün istiqaməti üzrə Fəaliyyət strategiyası təsdiq olundu. Bu plana görə ölkə həyatının bütün sahələrinin inkişafı nəzərdə tutulmuşdur. Sosial sahədə 50 mindən çox mənzilin tikintisi nəzərdə tutulmuşdur. Prezidentin təşəbbüsü ilə xarici siyasət sahəsində 13 ölkə ilə çoxplanlı əməkdaşlığın daha da inkişafı üzrə "yol xəritələri" təsdiq edilmişdir. Bu planda türk-müsəlman respublikalarına xüsusi önəm verilir.

Müstəqillik illərində Özbəkistanın beynəlxalq nüfuzu günü-gündən möhkəmlənir. Onun xarici siyasət istiqamətləri arasında türk, müsəlman respublikaları ilə əməkdaşlığa xüsusi önəm verilir. Bu sahədə Azərbaycanın da özünəməxsus yeri vardır. Ümumi türk arealında mühüm coğrafi mövqeyə malik olan Azərbaycan da tarixi İpək yolunun üzərində yerləşir. Nəhayət, Sovetlər birliyinin süqutundan sonra Azərbaycan və özbək xalqları özlərinin əzəli arzularına qovuşdular və onların arasında bərabərhüquqlu münasibətlər bərqərar oldu.

Müstəqilliyin ilk günlərindən başlayaraq Özbəkistan Cənubi Qafqaz regionunda əsas tərəfdaş kimi qəbul etdiyi Azərbaycanla əməkdaşlığın dərinləşməsinə xüsusi əhəmiyyət verir. Özbəkistanın Azərbaycandakı səfiri, xalqımızın yaxın dostu, Bakıda fəaliyyətə başladığı gündən iki qardaş dövlətin və xalqın daha da yaxınlaşması səylərini əsirgəməyən Ş.Fayziyev bununla əlaqədar olaraq bildirmişdir ki, Cənubi Qafqazın başlıca dövləti olan Azərbaycan ilə münasibətlərin möhkəmləndirilməsi Özbəkistanın xarici siyasətinin mühüm və üstün istiqamətlərindən biri olaraq qalacaqdır.

Şübhəsiz, bu iki xalq arasında sıx və etibarlı münasibətlərin qurulması yaxın milli adət və ənənələrə, ümumi dil qrupuna, mədəniyyət və din birliyinə əsaslanır. Uzun illər ərzində hər iki dövlət SSRİ tərkibində müttəfiq respublikaları olmuşlar. Ötən əsrin 30-cu illərində kütləvi repressiyalar zamanı on minlərlə azərbaycanlı Özbəkistan torpağında sığınacaq tapmışdı. Təsadüfi deyil ki, bu gün 40 mindən çox azərbaycanlı Özbəkistan cəmiyyətinin sosial, ictimai, iqtisadi və digər sahələrində fəal iştirak edir. Həm də bu iki xalq bərk günün dostudurlar. Belə ki, 1966-cı ilin aprelində dağıdıcı zəlzələdən sonra Daşkəndin bərpasında azərbaycanlılar yaxından iştirak etdiblər.

Böyük perspektivlərə malik olan Azərbaycan-Özbəkistan münasibətləri Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda hökm sürən sabitliyin və davamlı inkişafın təmin edilməsində də mühüm rol oynayır. Bu iki ölkə arasında diplomatik münasibətlər 1995-ci il oktyabrın 2-də qurulmuşdur. 1996-cı ilin ortalarında Azərbaycan Respublikasının Özbəkistan Respublikasında, 1998-ci ilin may ayında Özbəkistan Respublikasının Azərbaycan Respublikasında səfirlikləri fəaliyyətə başlayıb.

Dost Özbəkistanın Azərbaycandakı səfiri Şerzod Fayziyevin qeyd etdiyi kimi, hazırda iki ölkə arasındakı münasibətlərin inkişafı strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Belə ki, qarşılıqlı siyasi münasibətlər hüquq bərabərliyi prinsipləri əsasında, milli maraqları və prioritetləri nəzərə almaqla yeni məzmun kəsb etmişdir.

İki dövlətin rəhbərlərinin müntəzəm görüşlərinin keçirilməsi yaxşı ənənəyə çevrilmişdir. Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun Azərbaycana 26-27 may 1996-cı il tarixlərdə ilk rəsmi səfəri xüsusi qeyd olunmalıdır. Qarşılıqlı anlaşma və dostluq şəraitində keçən səfər ərzində iki ölkə arasında 19 sazişdən ibarət xüsusi sənəd paketi, o cümlədən "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə" imzalanıb. Səfər çərçivəsində Özbəkistan Prezidenti İslam Kərimova Bakı Dövlət Universitetinin fəxri doktoru diplomu təqdim olunub.

Belə ki, 1997-ci ildən indiyədək 6 yüksəksəviyyəli səfər baş tutmuşdur. Onlardan 3-ü Özbəkistan prezidentinin Azərbaycana, 3-ü isə Azərbaycan Prezidentinin Özbəkistana etdiyi rəsmi səfərlərdir. 1997-ci ildə ulu öndər Heydər Əliyevin Özbəkistana rəsmi səfərini münasibətlərin inkişafında yeni mərhələ kimi səciyyələndirmək olar. Prezident İlham Əliyevin qardaş Özbəkistana iki rəsmi səfərinin gedişində isə dövlətlər, hökumətlər və müxtəlif şirkətlər arasında sənədlərin imzalanması əməkdaşlığın daha da genişləndirilməsi üçün möhkəm bir zəmin yaratmışdır. Nəticədə ikitərəfli münasibətləri hərtərəfli şəkildə tənzimləyən 120-dən çox normativ-hüquqi sənəd imzalanmışdır.



Ötən illər ərzində tərəflər müxtəlif məsələlərdə bir-birinə qarşılıqlı dəstək verməklə prinsipial yanaşma nümayiş etdirirlər. Özbəkistan Dağlıq Qarabağ münaqişəsinin sülh və siyasi yolla həllinin tərəfdarıdır və münaqişənin həllinin əsas şərtinin Azərbaycanın ərazi bütövlüyünün bərpası və suverenliyinin qorunması olduğunu hesab edir.

Son illər iki ölkə arasında siyasi məsləhətləşmələr geniş tətbiq edilir. İki ölkənin parlament nümayəndə heyətlərinin qarşılıqlı surətdə 10-dan çox görüşü keçirilmişdir. 2018-ci il ərzində münasibətlərin geniş istiqamətləri üzrə aktiv əlaqələr davam etdirilmişdir. Özbəkistanın bir sıra yüksək səviyyəli dövlət və hökumət nümayəndələri Azərbaycana səfər etmişlər.

Təqdirəlayiq haldır ki, qlobal böhran nəticəsində dünya iqtisadiyyatını bürümüş mənfi tendensiyalar və proseslər fonunda Özbəkistan və Azərbaycan iqtisadiyyatları üçün müsbət göstəricilər səciyyəvidir. Bu isə, öz növbəsində, hər iki ölkənin seçdiyi inkişaf modellərinin həyat qabiliyyətini və effektivliyini təsdiqləyir. Bu modellər yeni, sosial istiqamətli iqtisadiyyatın formalaşdırılması prinsiplərini özündə əks etdirir.

Ticari-iqtisadi münasibətlər ikitərəfli əməkdaşlığın prioritet istiqamətlərindən biridir. Bu sahədə əməkdaşlıq azad ticarət rejimində həyata keçirilir və iqtisadiyyatın müxtəlif sahələrini əhatə edir. Özbəkistan Azərbaycana nəqliyyat vasitələri, əlvan metallar, əczaçılıq məhsulları, gübrələr, elektrik və mexaniki cihazlar, kənd təsərrüfatı məhsulları ixrac edir. Azərbaycan isə Özbəkistana əsasən mexaniki cihazlar, qənnadı məmulatları, müxtəlif üzvi və kimyəvi birləşmələr, aşılayıcı və boyaq ekstratları ixrac edir.

Ticari-iqtisadi fəaliyyəti tənzimləyən mühüm mexanizm Özbəkistan ilə Azərbaycan arasında yaradılmış əməkdaşlıq üzrə Hökumətlərarası birgə komissiyadır ki, son vaxtlaradək onun 10 iclası keçirilmişdir.

Özbəkistan və Azərbaycan investisiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsində müəyyən uğurlar əldə ediblər. Hazırda Özbəkistanda Azərbaycan investorlarının iştirakı ilə 80-dən çox müəssisə, o cümlədən 70-dən artıq birgə müəssisə fəaliyyət göstərir. Onlar iqtisadiyyatın enerji, yeyinti və yüngül sənaye, maşınqayırma, metal emalı, sığorta, maliyyə, elm və təhsil, tikinti və ticarət sahələrində ixtisaslaşırlar.

Etibarlı nəqliyyat kommunikasiyalarının formalaşmasına artan maraq nəqliyyat kommunikasiyaları sahəsində əməkdaşlığın inkişafına və dərinləşməsinə, həmçinin iki ölkənin böyük tranzit potensialından səmərəli istifadə etməyə imkan yaradır. Bu mənada Mərkəzi Asiyadan Xəzər dənizinə, daha sonra Qafqaz vasitəsilə Qara dəniz və Aralıq dənizi limanlarına gedən nəqliyyat marşrutları xüsusi aktuallıq kəsb edir. Azərbaycanın paytaxt limanı Özbəkistan üçün Bakı-Tbilisi-Qars yeni perspektivli dəhlizi inkişaf etdirməyə imkan verən Cənubi və Mərkəzi Avropa bazarlarına, həmçinin "Mersin" Aralıq dənizi limanı və "Poti" Qara dəniz limanı vasitəsilə Yaxın Şərq, Cənubi və Cənub-Şərqi Asiya ölkələrinə aparan mühüm nəqliyyat qovşağına çevrilə bilər.

Ənənəyə çevrilmiş Özbəkistan-Azərbaycan birgə biznes forumları, eləcə də iqtisadi sahədə həyata keçirilən digər tədbirlər sayəsində iqtisadi sahədə səmərəli əməkdaşlığın yeni sahələri müəyyən edilmiş və bir sıra uğurlar qazanılmışdır. 2018-ci ilin fevralında Özbəkistanda keçirilmiş biznes-forumda Azərbaycanın iri kompaniyalarının 20-dən artıq nümayəndəsi və Özbəkistan müəssisələrinin 50-dən artıq rəhbəri iştirak etmişlər. Nəticədə əməkdaşlıq haqqında müvafiq sənədlər imzalanmışdır.

Özbəkistan buğdasının Azərbaycan bazarına tədarükünün təcrübəsi də vardır. Eyni zamanda, Özbəkistanın pambıqçılıq və toxuculuq sahələrindəki böyük potensialı qarşılıqlı faydalı əməkdaşlığın yeni istiqamətlərinin müəyyən edilməsi baxımından vacib ola bilər. Digər tərəfdən, dünyada cərəyan edən böhranlar fonunda qarşılıqlı əmtəə dövriyyəsinin sürətinin artırılması son dərəcə əhəmiyyət kəsb edir.

Qarşılıqlı münasibətlərdə mədəni-humanitar cəhətlər yenə də yüksələn xətlə inkişaf etməkdədir. Görkəmli Azərbaycan və özbək klassikləri - Əlişir Nəvai, Mirzə Uluqbəy, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Məhəmməd Füzuli və bir çox başqalarının yaratdıqları əsərlər təkcə Şərq xalqlarının deyil, həm də bütün dünya sivilizasiyasının inciləri, dəyərli sərvətidir.

Azərbaycanda da özbək xalqının zəngin tarixi və mədəniyyətinə, dünya sivilizasiyasının inkişafına verdiyi töhfələrə böyük hörmətlə yanaşılır. Azərbaycanda Əlişir Nəvainin "Mezonul avzon" əsərinin Azərbaycan dilinə tərcüməsinin təqdimatı, Bakıda böyük özbək şairinin abidəsinin açılış mərasimi keçirilmişdir. Azərbaycan paytaxtının mərkəzi küçələrindən biri görkəmli alim və dövlət xadimi Mirzə Uluqbəyin şərəfinə adlandırılmışdır. Əlişir Nəvaininin, demək olar ki, bütün əsərləri Azərbaycan dilinə tərcümə edilmişdir.

2010-cu ildə Daşkənddə Heydər Əliyev adına Azərbaycan Mədəniyyəti Mərkəzinin açılışı olmuşdur. Özbəklər və orada yaşayan azərbaycanlılar bu mərkəzin mədəni xidmətlərindən faydalanırlar. Müstəqillik illərində Özbəkistanın 27 nəfər azərbaycanlı vətəndaşı - müəllimlər, inşaatçılar, hərbçilər, mədəniyyət və incəsənət ustaları - yüksək dövlət mükafatlarına layiq görülmüşlər.

İki ölkədə keçirilən müxtəlif mədəniyyət və incəsənət festivalları, forum və sərgilər qarşılıqlı mədəni əlaqələrin daha da güclənməsində mühüm rol oynamışdır. Azərbaycanın incəsənət xadimləri Səmərqənddə keçirilən "Şərq tərənələri" beynəlxalq musiqi festivalının, opera, teatr və kino festivallarının daimi və fəal iştirakçıları olmuşlar. Öz növbəsində Özbəkistan nümayəndələri hər il Bakıda keçirilən Beynəlxalq Muğam Festivalında iştirak edir və mükafatlar alırlar.

İki ölkənin Elmlər akademiyaları və ali təhsil müəssisələri arasında birbaşa əlaqələri getdikcə genişlənir. Bu sahədə əməkdaşlıq "Təhsil sahəsində əməkdaşlıq haqqında hökumətlərarası saziş"ə əsaslanır.

Son zamanlar iki ölkə arasında hərbi, hərbi-texniki sahədə əməkdaşlıq, hərbi təhsil və bir sıra digər istiqamətlər üzrə müzakirələr aparılıb. Azərbaycan və Özbəkistan arasında hərbi əməkdaşlıq haqqında saziş imzalanıb. Azərbaycan üçün Özbəkistan ilə hərbi əməkdaşlıq əlaqələri xüsusi əhəmiyyət kəsb edir.

Qəti bir inamla söyləmək olar ki, bu gün öz gücünə güvənərək və mühüm islahatlar həyata keçirərək qardaş Azərbaycan və Özbəkistan inamlı addımlarla irəliləyən və gələcəyini möhkəm özüllər üzərində quran qüdrətli dövlətlərə çevrilmişlər. İslam və türk dünyasının bu iki qüdrətli dövlətinin ictimai-siyasi və iqtisadi həyatında baş verən dəyişikliklər və böyük uğurlar qarşılıqlı etimada əsaslanan münasibətlərin inkişafına münbit şərait yaradır. Ümid edirik ki, həm Özbəkistan, həm də Azərbaycan hər il müstəqilliklərinin yeni ildönümünü böyük nailiyyətlərlə bayram edəcəklər.

**Atamoğlan MƏMMƏDLİ.**